# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 27** **Bakı şəhəri, 27 yanvar 2023-cü il**

***"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 avqust tarixli 296 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 avqust tarixli 296 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1113) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissədə "13" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri:" bölməsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ekoloji siyasət şöbəsinin müdiri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Hüquq və insan resursları şöbəsinin müdiri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ətraf mühitin və təbii sərvətlərin idarə edilməsi şöbəsinin müdiri

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin rəisi.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2023.- 31 yanvar.- S.6.